Ötən gün Rusiya Nazirlər Kabinetinin iclasında Ermənistanın Avrasiya İttifaqına üzvlüyünü nəzərdə tutan müqavilə təsdiqlənib.

Modern.az rus mətbuatına istinadən xəbər verir ki, bundan sonra qərar imzalnması üçün prezident Vladimir Putinə təqdim olunacaq. Müqavilədə rəsmi Yerevanın iqtisadi birlikdə hansı status və çərçivədə üzv olacağı ilə bağlı əsas baza elementləri yer alıb.

Qeyd edək ki, iylun 17-də jurnalsitlərin suallarını cavablandıran Ermənistan baş naziri Ovik Abramyan “oktyabrın sonlarına qədər Avrasiya İttifaqına üzv olacayıq” –deyə ölkə ictimaiyyətinə vəd vermişdi. 2015-ci il yanvarın birindən Avrasiya İttifaqının vahid qaydalar sistemi faktiki fəaliyyətə başlayır.

Xatırladaq ki, Rusiya, Qazaxıstan və Belarusun daxil olduğu Avrasiya İqtisadi Birliyi bu il mayın 29-da Astana şəhərində imzalanmış müqavilə əsasında rəsmən élan olunub